# Saatlıda pambıq yığımı: ilk uğurlar və gözləntilər

**Bir neçə gündür ki, Saatlıda pambıq yığımına başlanıb. Hər gün sahələrdən orta hesabla 50 tona yaxın məhsul toplanır. Ən yaxın günlərdə, pambıqyığan maşınların tarlalara çıxması ilə yığımın daha da sürətlənəcəyi gözlənilir. Artıq ilk uğurlar əldə olunur. Diqqət çəkən odur ki, yığımla bağlı işlər normal, öz axarı ilə, nizamla gedir.**



Fermerlər sahələrin məhsuldarlığını artırmaq əzmindədirlər

Saatlı Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirdilər ki, bu il rayonda 13 min 741 hektar sahədə pambıq əkilib. Əkin sahələri 2018-ci ildə olduğundan 3 min hektardan çox azalsa da, rayonda məhsuldarlığın artırılması hesabına ən azı ötənilki səviyyədə, havalar əlverişli keçsə, hətta daha çox "ağ qızıl" toplamaq qərara alınıb.

Dövlətin pambıqçılığın inkişafına göstərdiyi hərtərəfli dəstək fermerləri bu sahədə həvəslə işləməyə sövq edir. Onlar çiyid səpinindən tutmuş son becərmə işlərinə qədər hər bir aqrotexniki tədbiri vaxtında və yüksək keyfiyyətlə həyata keçiriblər. Nəticə ürəkaçandır: Pambıq plantasiyalarında məhsul boldur.

Qeyd etmək lazımdır ki, bu il rayonda pambıq yığımı kampaniyasına ciddi hazırlıq görülüb. 100-dən çox traktor, 180-ə yaxın qoşqu və kifayət qədər pambıqyığan kombayn fermerlərin ixtiyarına verilib. Pambıq qəbulu məntəqələri əsaslı təmir olunub.

Xatırladaq ki, ötən il Saatlı fermerləri 17 min 220 hektar sahədə pambıq əkib becərmiş, sahələrdən 30 min 440 ton "ağ qızıl" toplamışlar. Son 20-25 il ərzində heç bir rayonda bu qədər məhsul toplamaq mümkün olmamışdır.

Saatlılı fermerlər cari ildə də ölkə üzrə birinciliyi əldə saxlamağa çalışırlar. Rayonda pambıq yığımı ilə bağlı meydana çıxan problemləri operativ həll etmək üçün xüsusi qərargah yaradılıb. Gün ərzində məhsul yığımı və digər məsələlərlə bağlı bütün məlumatlar qərargaha ötürülür və çətinliklər operativ aradan qaldırılır.

Saatlıda bugünlərdə çox adam pambıq yığımı ilə bağlı fikirlərini bölüşür. Çoxları sevinir ki, dövlətimiz bu gəlirli sahənin inkişafına "yaşıl işıq" yandırıb. Hiss olunur ki, insanlar ölkəmizdə hökm sürən əmin-amanlıqdan, qurub-yaratmaq əzmindən məmnundurlar. Saatlı əhalisi də məhz bu əhval-ruhiyyədədir. Rayon sakinləri, əhali dövlətimizin, şəxsən Prezident İlham Əliyevin regionların sürətli inkişafına, bütövlükdə müstəqil ölkəmizin parlaq gələcəyinə xidmət edən müdrik siyasətini tamamilə bəyənir və ürəkdən dəstəkləyirlər.

Bu il iyulun 31-də Azərbaycan Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə dövlət başçısı ölkəmizdə kənd təsərrüfatının inkişafı ilə əlaqədar çox dəyərli tapşırıq və tövsiyələrini verib. Azərbaycan dövləti ölkədə qeyri-neft sektorunun inkişafına, iqtisadiyaytın şaxələndirilməsinə çalışır ki, bu siyasət bölgələrin tərəqqisi üçün yeni imkanlar açır.

Bu barədə söz düşəndə Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov inamla bildirdi ki, Prezident cənab İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Saatlı rayonu sosial-iqtisadi baxımdan tam stabil və dinamik inkişaf yoluna çıxmışdır. Azərbaycanın hər bir bölgəsi kimi, Saatlı rayonunun da inkişafına daim diqqət və qayğı göstərən dövlətimizn başçısı regionlara etdiyi səfərlər çərçivəsində son 16 ildə 7 dəfə rayonda olmuş, görülən işlərlə maraqlanmış, mühüm sosial layihələrin icrası istiqamətində sərəncamlar imzalamışdır.

Ölkə Prezidentinin regionların inkişafına göstərdiyi əməli qayğı yerli iş adamları və fermerlərin də ürəyincədir. Saatlılı fermer Hikmət Zeynalov dedi ki, o, möhtərəm Prezidentin aqrar sahənin inkişafına, kənd adamlarına göstərdiyi qayğıya əməli işlərlə cavab verməyə çalışır. Belə ki, onun başçılıq etdiyi fermer təsərrüfatı bu il 155,5 hektar taxıl sahəsindən 43,15 sentner olmaqla 671 ton məhsul əldə edib. Təsərrüfatın üzvləri bu il pambıq sahələrində də bol məhsul yetişdiriblər. Onlar məhsul yığımına həvəslə başlayıblar. Ümid edirlər ki, bu il ötənildəkindən də yüksək məhsuldarlığa nail ola bilcəklər.

Digər fermer Mirnazim Ağayev bu il 116 hektar taxıl sahəsindən 46,4 sentner olmaqla 540 ton məhsul əldə edib. Mirnazim əmindir ki, taxılçılıqda əldə etdiyi parlaq uğuru bu il pambıqçılıqda da təkrarlamaq mümkün olacaq.

Fermer bu barədə danışarkən öz ürək sözlərini belə ifadə etdi:

– Biz fermerlər dövlətin qayğısını hər an, hər addımda hiss edirik. İndi texnika, mineral gübrələr sarıdan heç bir problemimiz olmur. Bizə yalnız yaxşı işləmək və etimadı doğrultmaq qalır.

Saatlıda kiçik biznes və sahibkarlığın inkişafına diqqət və qayğı artmışdır. Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına yeni iş yerlərinin yaradılması üçün Saatlı rayon sahibkarlarına 20 min manat güzəştli kreditlər verilmişdir. Bu, onlarca yeni iş yerinin açılması ilə nəticələnmişdir. Rayonda yeni istehsal və emal müəssisələrinin yaradılması istiqamətində də işlər müvəffəqiyyətlə həyata keçirilir. 7 min hektar ərazidə "Aqropark" salınır ki, burada soyuducu anbar, istixanalar, tövlələr, yem zavodu, quşçuluq fabriki tikiləcək və kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə bağlı müxtəlif bitki növləri becəriləcəkdir.

Sonda bir daha pambıq yığımı mövzusuna qayıtmaq istərdik. Yaxşı başlanğıc uğurun yarısıdır, – deyirlər. Ümid etmək olar ki, Saatlı fermerləri pambıq yığımı kampaniayasına mütəşəkkil şəkildə başladıqları kimi, mövsümü də uğurla başa çatdıracaqlar.





***Səməd HÜSEYNOĞLU, Məsaim ABDULLAYEV, "Xalq qəzeti"***